

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 sentyabr 2024-cü il №71 (2882) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1057 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. üçüncü-doqquzuncu abzaslar müvafiq olaraq dördüncü-onuncu abzaslar hesab edilsin;

1.2. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü".

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin aidiyyəti xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 sentyabr 2024-cü il

## Azərbaycan Prezidenti İlham Əliyev Qarabağda aparılan təmir-bərpa və quruculuq işləri ilə tanış olub, bir sıra təməlqoyma mərasimləri və açılışlarda iştirak edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verib.

Prezident İlham Əliyev Eyvazxanbəyli kəndinin təməlini qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub.

Dövlətimizin başçısına kənddə görülən işlər barədə məlumat verilib.

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Quruculuq işlərinin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Prezident İlham Əliyev kənddə hazır evlərə baxıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye parkında görülən işlər barədə məlumat verib.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda "20 Sentyabr - Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü" sözləri yer alıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Suverenliyi Günü münasibətilə paylaşım edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Suverenliyi Günü ilə bağlı paylaşılan fotonun üzərində bu sözlər yazılıb:

"Əziz həmvətənlər, Dövlət Suverenliyi Günü münasibətilə sizi təbrik edirəm! Qoy qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı bahasına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz əbədi olsun!"

## Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq, Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək, ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram**:

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 sentyabr 2024-cü il

# Azərbaycan Prezidenti İlham Əliyev Qarabağda aparılan təmir-bərpa və quruculuq işləri ilə tanış olub, bir sıra təməlqoyma mərasimləri və açılışlarda iştirak edib

(Əvvəli 1-ci səhifədə)



Azərbaycan Prezidenti İlham Əliyev sənaye parkında əvvəlcə "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların, "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının, Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları, Ağdam Sənaye Parkında, həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları, parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodlarının açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib.

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.



Kompleksdə yaradılan Qarabağ atları parkında qədim dövrlərdən şöhrəti dünyanı dolaşan Azərbaycanın Qarabağ atlarının auksionunun keçirilməsi, eyni zamanda, parkda müxtəlif vaxtlarda bu atların iştirakı ilə təlim və şou-proqramların təşkili nəzərdə tutulur.

Dövlətimizin başçısı Qarabağ atlarına baxıb.

Qeyd olunub ki, Ağdam İmarət Kompleksi artıq ziyarətçilər üçün açıqdır. Kompleksə gələn qonaqlar, turistlər burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə bilərlər.

Məlumat verilib ki, işğaldan əvvəl kompleksin ətrafında müxtəlif növ ağaclardan ibarət yaşıllıq zonası mövcud olub. İşğal zamanı digər ərazilərimizdə olduğu kimi, burada da düşmən tərəfindən ekoloji terror həyata keçirilib. Kompleksin qarşısındakı dörd qədim çinar və digər ağaclar məhv edilib.

Prezident İlham Əliyev həmin tarixi çinarların yerində ağac əkib.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verib.

"İmarət" stadionunun UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulub. 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik stadionun oyun meydançası təbii ot örtüyünə malik olacaq.

Stadionda UEFA tələblərinə uyğun VVIP, VIP lounge, konfrans zalı, iclas otaqları, hakim otaqları, komandalar üçün soyunma-geyinmə sahələri, media otaqları, muzey, şərhçi otaqları və digər inzibati, köməkçi sahələr olacaq. Stadionun ərazisində əlavə məşq meydançası, qaçış zolağı, avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri, texniki bina və qurğular inşa ediləcək.

Dövlətimizin başçısı stadionun təməlini qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yaşayış məskənlərindən biri də Xıdırlı kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Qeyd olunub ki, kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb.

Diqqətə çatdırılıb ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Dövlətimizin başçısı kənddə hazır evlərə baxıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2024-cü il 13 yanvar tarixli Sərəncamı ilə Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması işləri sürətlə davam etdirilir.

Avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub.

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan Hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina sovet dövrü memarlığının əsas elementlərini özündə əks etdirir.

Teatrın binası XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib.

Dövlətimizin başçısına körpələr evi-uşaq bağçasında yaradılan şərait barədə məlumat verilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmiri nəzərdə tutulub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub.

Dövlətimizin başçısına görüləcək işlərlə bağlı məlumat verilib.

Bundan başqa, mərkəzdə restoranlar, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına ev-muzeyində yaradılan şərait barədə məlumat verib.

Ev-muzeyində Üzeyir Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Bayraq Meydanının açılışında iştirak edib.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına Bayraq Meydanında görülən işlər barədə məlumat verib.



Bildirilib ki, Bayraq Meydanının yenidən qurulması işlərinə 2024-cü ilin may ayında başlanılıb. Meydanın layihəsi "Chapman Taylor" şirkətinin konsepsiyası əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Qeyd edək ki, Bayraq Meydanının ətrafında Şuşa şəhərinin Baş Planına uyğun olaraq Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin inşa edilməsi nəzərdə tutulur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev və Qarabağ Universitetinin rektoru Şahin Bayramov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdilər.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib.*




Dövlətimizin başçısına ali təhsil ocağında yaradılan şəraitlə bağlı məlumat verildi.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr təlabatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb.

Dövlətimizin başçısı Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Sabahınız xeyir olsun. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək.

Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.

Bildiyiniz kimi, 44 gün ərzində şanlı ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz.

Bildiyiniz kimi, bu gün dünyada bir çox yerlərdə müharibələr, hərbi münaqişələr, toqquşmalar gedir, onların sayı azalmır, artır və indi hər şey göz qabağındadır. Müqayisə etmək üçün də kifayət qədər imkanlarımız var, məlumatlarımız var. 44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, - müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir.

Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Ancaq əminəm ki, hər bir qərəzsiz təhlilçi, hərbi ekspert və obyektiv insan bizim bütün bu 44 günlük qəhrəmanlıq salnaməsini təhlil edərək eyni nəticəyə gəlməlidir.

O ki qaldı antiterror əməliyyatının keçirilməsinə, burada da cəmi bir neçə saat davam edən əməliyyat Azərbaycan Ordusunun tam zəfəri ilə başa çatmışdır. Ermənistan ordusunun 15 mindən çox hərbi kontingenti tamamilə iflic vəziyyətinə düşmüşdür və bir neçə saatdan sonra kapitulyasiya şərtlərini artıq biz onlarla müzakirə etməyə başlamışdıq. İndi deyilir ki, 23 saat davam etdi, bəli ümumi proses 23 saat davam etdi. Ancaq bu prosesin hərbi hissəsi bir neçə saat davam etmişdir. Bütün bunlar bir daha dövlətimizin gücünü, xalqımızın iradəsini, gənc nəslin tərbiyəsini, bacarığını göstərir. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz.

İşğal dövründə keçmiş köçkünlərlə mənim çoxsaylı görüşlərim olmuşdur. Bildiyiniz kimi, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün dövlət bir çox önəmli layihələr icra etmişdir. Biz demək olar ki, hər il 15-20 min keçmiş köçkünü yeni qəsəbələrə, evlərə, mənzillərə köçürürdük və beləliklə, onların yaşayış səviyyəsi yaxşılaşırdı. Təqribən 300 mindən çox keçmiş köçkün artıq o yataqxanalardan, o yararsız yerlərdən, uşaq bağçalarından köçürülmüşdü. Ancaq, eyni zamanda, onlarla hər dəfə görüşəndə deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, gün gələcək və azad edilmiş torpaqlarda sizin üçün daha gözəl şərait yaradılacaq. Mən buna inanırdım, onlar da inanırdılar, bütün xalqımız buna inanırdı, bu fikirlə yaşayırdı. Amma, eyni zamanda, illər keçdikcə mən görürdüm ki, onların ümidləri yavaş-yavaş azalır. Bu da təbiidir, çünki işğal təxminən 30 il davam etdi.

Minlərlə, on minlərlə keçmiş köçkün bu Qələbə gününü görə bilmədi, həyatdan getdi. Təbii olaraq dünyada gedən prosesləri təhlil edərək mövcud ədalətsizliyi, beynəlxalq hüququn işləməməsini, böyük dövlətlərin Ermənistanın arxasında dayanmasını, bütün bunları - geosiyasi vəziyyəti təhlil edərək ola bilər kimsə belə fikrə gələ bilərdi ki, bu işğalla biz əbədi yaşamalıyıq. Biz bütün bu tezisləri, bütün bu paradiqmaları darmadağın etdik. Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz - nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, - nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz. Biz bütün dünyaya və bu gün işğaldan əziyyət çəkən, hətta müstəmləkəçilikdən əziyyət çəkən xalqlara göstərdik ki, inamla yaşamaq lazımdır. İnam heç vaxt qırılmamalıdır. Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz. Amma dünyada ədalət var. Prezident kimi müəyyən dövrlərdə mənim də ağlıma belə fikirlər gəlirdi ki, yəqin dünyada ədalət yoxdur. Amma bilirdim ki, bu ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Sən haqlısan, bütün dünya da sənin haqlı olduğunu etiraf edir, bilir, ancaq nəticə yoxdur. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır. Əlbəttə ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün bizim nümunəmiz bir ümid işığıdır. Bu, önəmlidir. Amma bizim xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək - bax, bu, əsas hədəflərimizdir. Bunu təmin etmək üçün, əlbəttə ki, dövlət siyasəti olmalıdır və var. Cəmiyyətdə birlik olmalıdır, bu da var. 44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər. Onlar, ilk növbədə, milli ruhda tərbiyə almalıdırlar, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiq olmalıdırlar. Heç kimin təsiri altına düşməməlidirlər, müxtəlif vədlərə aldanmamalıdırlar. Bizim bu 30 illik işğal dövrümüz onu göstərdi. Demək olar ki, bütün böyük güclər, onların hamısı bu işğalı əbədi etmək istəyirdi. Heç biri istəmirdi ki, xalqımız bu işğaldan yaxasını qurtarsın. Yəni, daim bizi təzyiq altında saxlamaq, daim bu işğaldan bir təsir amili kimi istifadə etmək, öz maraqlarını təmin etmək və nəticə etibarilə bizi bu vəziyyətlə barışdırmaq istəyirdilər. İşğal dövründə müxtəlif paytaxtlardan gələn qonaqlar dəfələrlə deyirdilər ki, bu məsələnin, bu münaqişənin hərbi həlli yoxdur. Bəlkə sizin də yadınızdadır ki, belə bir tezis var idi - bunun hərbi həlli yoxdur, sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda, o vaxt "Birinci Qarabağ" deyilmirdi, amma Qarabağ müharibəsinin nəticələri də nəzərə alınmalıdır. Yəni, bizi nə ilə barışdırmaq istəyirdilər?! Məğlubiyyətlə. İstəyirdilər ki, xalqımız bu məğlubiyyətlə razılaşsın.

Digər tezis ondan ibarət idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik. Ona görə bu günə qədər bizə qarşı təzyiqlər edilir. Hər səhər mətbuatla, o cümlədən Azərbaycan haqqında dünyanın müxtəlif yerlərində gedən yazılarla tanış oluram. Bu gün səhər tezdən baxıram, bizə qarşı nə qədər əsassız ittihamlar işlədilir. Özü də müxtəlif Qərb ölkələrinin siyasətçiləri və yüksək vəzifə tutanlar, bəzi ölkələrin rəsmi nümayəndələri belə bir qəbuledilməz ifadələr işlədirlər ki, Azərbaycan Qarabağı zəbt edib. Yəni, bu, ikiüzlülüyün, riyakarlığın zirvəsidir. Ölkə öz torpağını necə zəbt edə bilər?! Bizim müharibəmiz azadlıq müharibəsi idi. Yəni, bunu deyənlər, bizə qarşı ittihamlar irəli sürənlər də bunu yaxşı bilirlər. Sadəcə olaraq, ikili standartlar, ikiüzlülük, riyakarlıq, islamofobiya və xalqımıza olan düşmənçilik - biz bunu heç vaxt unutmamalıyıq və gənc nəsil bunu bilməlidir. Çünki təbii olaraq siz o illəri yaşamamısınız və tarixi kitablardan oxuyursunuz. Ona görə həm orta məktəblərdə, həm də ali məktəblərdə müəllimlərin üzərinə çox böyük vəzifə düşür. Mən bu gün bizim müəllimlərimizi, onların işini xüsusilə qeyd etmək istəyirəm. Çünki bizim gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların çox böyük rolu olmuşdur, bu gün də var. İki tərbiyə mənbəyi var - ailə və müəllim. Xoşbəxtlikdən Azərbaycanda ailə dəyərləri üstün tutulur və həmişə belə olmalıdır. Bizim ənənələrimiz bunu diktə edir və eyni zamanda, bəzi Qərb ölkələrində ailə dəyərlərinin tamamilə eybəcər formasına düşməsi hər birimizdə haqlı olaraq ikrah hissi doğurur. Ona görə ailə dəyərləri, ailə tərbiyəsi birinci növbədə qorunmalıdır. Yenə də deyirəm, müəllimlər uşaqların, gənclərin biliklərini artırmaq, eyni zamanda, onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işləyirlər. İkinci Qarabağ müharibəsi bunu göstərdi. Heç vaxt Qarabağı görməyən gənclər Qarabağ uğrunda ölümə gedirdilər, ölümə getməyə hazır idilər, şəhid oldular, yaralandılar. Ancaq yenə də bu Zəfəri təmin etmək üçün dayanmadılar. Hərbi hospitallara yerləşdirilmiş hərbçilərimizin bir çoxu həkimlərə müraciət edərək deyirdi ki, tezliklə məni sağaldın, ayaqlara ayaq qoyun, yenə də gedim döyüşüm, belələrinin sayı çox idi. Yüngül yaralanmış hərbçilər müalicədən sonra yenə də könüllü olaraq döyüş bölgələrinə gedirdilər.

**(Ardı 4-cü səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik

**(Əvvəli 3-cü səhifədə)**

Bu gün, eyni zamanda, Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park yaradıldı. Master-plan hazırlandı, yəni, gələcək illərdə, yaqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni, tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir - Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə - "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələri faktiki olaraq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur.

XX əsrin əvvəlində isə xalqımıza qarşı növbəti düşmənçilik addımları atılmışdır. 1923-cü ildə heç bir əsas olmadan Azərbaycanda, Qarabağda "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradılmışdı, sovet Azərbaycanı Respublikasının tərkibində. Bu vilayətin tabeçiliyi Sovet İttifaqının mərkəzinə bağlanmışdı. Beləliklə, bu bölgəni Azərbaycandan ayırmaq üçün növbəti addım atıldı. Ondan üç il əvvəl Zəngəzuru bizdən aldılar, yəni Qərbi Zəngəzuru, tamamilə əsassız. Bunu 1920-ci ilin noyabr ayında, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən bir neçə ay keçəndən sonra etdilər. 1923-cü ildə isə bizim canımıza növbəti saat bombasını saldılar və ondan sonra burada kütləvi erməniləşmə siyasəti aparılırdı. Müxtəlif yerlərdən, o cümlədən Ermənistandan sovet hökuməti erməniləri buraya şüurlu olaraq doldururdu ki, burada ermənilərin sayı, yəni ovaxtkı muxtar vilayət çərçivəsində daha çox olsun. Eyni zamanda, burada mövcud olan separatizm meyillərinə də düzgün reaksiya verilmirdi. Ancaq Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra burada bütün separatçıların yuvaları dağıdıldı və sabitlik yaradıldı. Keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə azərbaycanlıların sayı 9 faizdən, təqribən 30 faizə qədər artdı. Dəmir yolu çəkildi ki, azərbaycanlılar müxtəlif bölgələrdən buraya daha tez gələ bilsinlər. Xankəndidə dəmir yolu vağzalı tikildi, böyük infrastruktur layihələri yaradıldı - Sərsəng, Suqovuşan su anbarları. Hansılar ki, ermənilər işğal dövründə bizi sudan da məhrum etmişdilər. Bir neçə müəssisə yaradıldı və bu müəssisələrdə çalışan azərbaycanlılar müxtəlif bölgələrdən, o cümlədən Qarabağ bölgəsindən gəldilər. Bütün bunlar davam edirdi. Ancaq 1987-ci ildə Heydər Əliyev istefaya göndəriləndən sonra yenə də separatçılar baş qaldırdılar və bu dəfə bu, xalqımıza çox baha başa gəldi. Bəlkə gənclər onu da bilmirlər, Heydər Əliyevin istefasından iki həftə sonra bir sovet erməni alimi Fransanın "Humanite" qəzetində məqalə dərc etmişdi ki, "Dağlıq Qarabağ Muxtar Vilayəti" Azərbaycandan çıxarılıb Ermənistana birləşməlidir. Cəmi iki həftədən sonra, - artıq Heydər Əliyev iqtidarda yox idi, - dərhal burada - Xankəndidə və Ermənistanda hərəkət başlamışdı, müxtəlif təşkilatlar yaradılmışdı. Mərkəzi hökumət, yəni, Sovet İttifaqı rəhbərliyi buna laqeyd yanaşırdı. Hətta o, separatçıları, erməni millətçilərini, necə deyərlər, stimullaşdırırdı, onları daha da fəal olmağa təhrik edirdi. Qarşıya vəzifə qoyuldu ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi zəiflik, qorxaqlıq, bəzi hallarda xəyanət göstərmişdir. Həm 1980-ci illərin sonlarında, həm 1990-cı illərin əvvəllərində, həm kommunist, həm də Xalq Cəbhəsi hakimiyyətinin satqınlığı, qorxaqlığı, xəyanəti nəticəsində biz torpaqları itirdik.

Xankəndidən azərbaycanlılar qovuldu, ondan sonra - müstəqillik elan olunandan dörd ay sonra 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax, bu idi bizim tariximiz.

Yenə də bu gün Ulu Öndərin xatirəsinə hörmət ifadə edərək bir daha deyirik və görürük ki, əgər 1993-cü ildə xalqın tələbi ilə o, Azərbaycana gəlməsəydi, Azərbaycan, ümumiyyətlə, dünya xəritəsindən silinə bilərdi. Sabitlik yaradıldı, inkişafa qədəm qoyuldu və quruculuq işlərinə başlandı. Quruculuq və inkişaf işlərinin məntiqi nəticəsi 8 Noyabr - Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr - Dövlət Suverenliyi Günü idi.

Mən bir daha sizi ürəkdən salamlayıram. Mən Azərbaycan tarixi haqqında çox danışa bilərəm. Çünki mən bu tarixi yaşamışam, son 30 ilin tarixini və bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun! Sizi təbrik edirəm.

* * *

Qarabağ Universitetinin rektoru **Şahin Bayramov** çıxış edərək deyib:

- Möhtərəm cənab Prezident, Sizi Qarabağ Universiteti ailəsi adından böyük şərəflə və sonsuz qürur hissləri ilə salamlayırıq. Biz də fürsətdən istifadə edərək, ilk növbədə, Sizi 20 Sentyabr - Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibətilə bütün kollektivimiz adından təbrik edirik.

Təbii ki, bu gün Qarabağ Universitetinin açılışını Sizin iştirakınızla etməyimiz Ali Baş Komandanlığınızla qazanılmış tarixi Zəfərin növbəti təntənəsidir. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk. İlk növbədə, xüsusi vurğulamaq istəyirəm ki, Qarabağ Universitetini yaratdığınıza və onun qısa bir zamanda fəaliyyətə başlamasına çox böyük dəstək göstərdiyinizə, davamlı qayğınıza görə bütün heyətimiz adından Sizə təşəkkür edirik.

Sizin müvafiq tapşırıq və göstərişləriniz əsasında Qarabağ Universitetinin qurulması yolunda işlərimiz sürətlə davam edir. Çox qısa olaraq məlumat vermək istəyirəm ki, bütün heyətimiz çox peşəkar insanlardan formalaşdırılıb. Bizi çox sevindirir və qürurlandırır ki, Qarabağ Universitetinin ilk tələbələri üçün elan etdiyimiz qəbul planı tam dolub və xüsusi vurğulayaq ki, tələbə qəbulu çox keyfiyyətli olub. Universitetimizə qəbul olan tələbələr arasında imtahanlarda yüksək bal toplayan gənclərimizin sayı çoxdur. Bu, bizi qürurlandırır və keyfiyyətli universitet quruculuğu yolunda daha da ruhlandırır.




Təbii ki, tələbələrimizin Azərbaycanımıza layiqli vətəndaş, yüksəkixtisaslı mütəxəssis olmaları ilə bağlı vacib tapşırığınız var. Buna görə də universitetimizi yeni dövrün çağırışlarına uyğun, məhz müasir Azərbaycan gəncinin arzu və istəklərinə uyğun formalaşdırmağa çalışırıq. Universitetimizdə məhz buna uyğun akademik məzmun yaradılıb və yeni dövrə uyğun universitet idarəetmə modeli formalaşdırırıq. Əmin edirik ki, Qarabağ Universiteti Sizin böyük dəstəyinizlə çox qısa bir zamanda Azərbaycanımızın əsas elm, təhsil və innovasiya mərkəzlərindən birinə çevrilə biləcək. İstəyimiz ondan ibarətdir ki, tələbələrimizi Ulu Öndərimizin ideyalarına sadiq, vətənpərvər ruhlu, müasir dünyagörüşlü, milli-mənəvi dəyərlərimizə sadiq gənclər olaraq yetişdirə bilək ki, bütün gənclərimiz dövrdə Azərbaycanımızın inkişafına öz layiqli töhfələrini verə bilsinlər.

Sizin tapşırığınızla Qarabağ Universitetinin qarşısına qoyulan əsas hədəf keyfiyyətli ali təhsil xidmətləri göstərmək, nəticəyönümlü tədqiqatlar həyata keçirmək və cəmiyyətimizə faydalı ola biləcək innovativ həllər təbiq etməkdir. Təbii ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyətə başlayan ilk universitetin və ya adı Qarabağla bağlı olan bir universitetin heyətində təmsil olunmaq hər birimiz üçün sonsuz şərəfdir və həm də çox böyük məsuliyyətdir. Bu məsuliyyəti aydınlığı ilə dərk edirik. Siz çox doğru vurğuladınız ki, bu universiteti tarixi Zəfəri yaşamış gənclər üçün yaratmısınız və məhz tarixi Zəfərin qazanıldığı torpaqda yaratmısınız. Bu, bizim məsuliyyətimizi daha da artırır.

Sizi əmin edirik ki, qarşımıza qoyduğunuz bütün tapşırıqları yerinə yetirmək üçün bütün heyətimiz formalaşıb. 1200 tələbəmizin gəlişi ilə gücümüz əhəmiyyətli şəkildə artıb, müasir gənclərimiz komandamızda formalaşıb. Əmin ola bilərsiniz ki, qarşımıza qoyulan bütün tapşırıqları yerinə yetirmək üçün var qüvvəmizlə çalışacağıq. Təşəkkür edirəm.

Prezident **İlham Əliyev**: Sağ ol. Təşəkkür edirəm.

* * *

Sonra çıxış edən tələbə **Fənarə Məmmədzadə** deyib:

- Hörmətli cənab Prezident, mən Bərdə şəhərində fəaliyyət göstərən Ağdam rayon 9 nömrəli tam orta məktəbin məzunuyam. Laçın rayonundan keçmiş məcburi köçkünəm. Doğma torpaqlarımızı heç vaxt görməsəm də, bu sevgimi qəlbimdə daşımışam. Bu gün çox xoşbəxtəm. Qəbul imtahanında 642 bal toplayaraq Qarabağ Universitetinin maliyyə ixtisasını seçmişəm və doğma yurduma tələbə statusunda qayıtmışam. İnanıram ki, tələbələrimiz Qarabağ Universitetinin bizə verdiyi imkanlardan ən doğru şəkildə istifadə edərək gələcəyin parlaq mütəxəssisləri olacaqlar və Qarabağımızın dirçəlməsində birlikdə iştirak edəcəklər.

Son olaraq doğma torpaqlarımızı işğaldan azad etdiyiniz və biz gənclərə burada təhsil almaq şansı yaratdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

Prezident **İlham Əliyev:** Sağ ol, təşəkkür edirəm.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik

(Əvvəli 4-cü səhifədə)

Tələbə **Rauf Penceyev** dedi:

- Möhtərəm Prezident, mən Bakı şəhəri 85 nömrəli tam orta məktəbin məzunuyam. Ötən ilin qəbul imtahanlarında 600 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Birinci kursda oxuduğum zaman Sizin Qarabağ Universitetinin yaradılması ilə bağlı Sərəncam imzaladığınız barədə xəbəri eşitdim. Bu xəbəri eşitdikdən sonra Qarabağ Universitetinin ilk tələbələrindən olmaq sevincini yaşamaq üçün əlimdən gələni etmək istədim və bunun üçün respublikamızda keçirilən "SABAH" qrupu imtahanlarında yüksək nəticə toplayaraq təhsilimi Qarabağ Universitetində davam etdirmək hüququ qazandım. Həm Qarabağ Universitetinin ilk tələbələrindən biri olmaq və həm də ilk məzunlarından biri olacağım üçün çox xoşbəxtəm və qürurluyam. Bu gün bu möhtəşəm tədbirdə - Qarabağ Universitetinin açılışında Sizin qarşınızda "SABAH" qrupunun tələbələrindən biri olaraq çıxış etməkdən fərəh hissi duyuram. Qarabağa ilk gəlişim Xankəndi şəhərinə təsadüf etdi və buraya tələbə statusunda gəlmək daha böyük qürurverici hissdir. Xankəndi şəhərində yaradılan şərait və infrastrukturla tanış olmuşam. Burada yaradılan şəraitə, ən əsası isə biz tələbələr üçün müasir tipli yataqxananı və qısa müddətdə Qarabağ Universitetini hazır vəziyyətə gətirdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.




Prezident **İlham Əliyev**: Sağ ol.

* * *

Tələbə **Zenfira Nəsirova** dedi:

- Möhtərəm cənab Prezident, mən Salyan şəhər, Aşıq Pənah adına 1 saylı məktəbin məzunuyam. Builki qəbul imtahanında 684 bal toplayaraq Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olmuşam. Doğrusu, topladığım bal mənə respublikamızın digər ali məktəblərini seçmək imkanını yaradırdı. Lakin məhz seçimim Qarabağ Universiteti oldu və sevinirəm ki, ailəm də bu seçimimi dəstəklədi. Çünki burada təhsil almaq hər bir azərbaycanlı gənc üçün böyük fəxarətdir. Bu gün bu tədbirdə iştirak edirəm və çox xoşbəxtəm ki, həm Qarabağ Universitetinin ilk tələbələrindənəm, həm də tələbələr arasında ən yüksək nəticəni mən göstərmişəm və Sizin qarşınızda çıxış etmək imkanı qazanmışam.

Biz tələbələr olaraq Sizi tam əmin edə bilərik ki, yüksək təhsil alıb peşəkar mütəxəssis kimi yetişərək ölkəmizə, Vətənimizə daim fayda verəcəyik. Yaradılan bütün şəraitə və ümumi olaraq Azərbaycan gəncinə göstərdiyiniz dəstəyə görə Sizə və Mehriban xanıma xüsusi təşəkkürümüzü bildiririk.

* * *

Prezident **İlham Əliyev**: Sağ ol. Təşəkkür edirəm.

Sağ olun, əziz dostlar, uşaqlar. Bir daha sizi həm Dövlət Suverenliyi Günü münasibətilə, həm də Qarabağ Universitetinin fəaliyyətə başlaması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uğurlar, yeni zəfərlər arzulayıram. Qarabağ Azərbaycandır!

**AZƏRTAC-ın materialları əsasında**

## Müdafiə nazirinin 20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi müstəqil dövlətçilik tariximizin ən əlamətdar bayramlarından biri olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə yeni təsis edilmiş 20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə dayanıqlı iqtisadi inkişafa nail olunmuş, müdafiə qüdrətimizin artırılması istiqamətində böyük uğurlar əldə edilmişdir. Azərbaycan Ordusunda həyata keçirilən geniş islahatların müsbət nəticələri tarixi qələbələrimizi təmin etmişdir.

2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin tam qələbəsi və torpaqlarımızın işğaldan azad edilərək ərazi bütövlüyümüzün bərpası ilə başa çatmışdır. Lakin şanlı Zəfərimizdən sonra Ermənistan silahlı qüvvələrinin qalıqları ölkəmizin ərazisindən çıxarılmamış, təxribatlar yenə də davam etdirilmişdir. Azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri aparan mülki şəxslərin və Böyük Qayıdışa dair Dövlət Proqramına müvafiq olaraq, öz doğma yurd yerlərinə qayıdan dinc sakinlərin təhlükəsizliyinin təmin olunması və ölkəmizin bütün suveren ərazilərində Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı həyata keçirilmişdir.

Cəmi 23 saat davam etmiş unikal antiterror əməliyyatı zamanı qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirən rəşadətli ordumuzun qazandığı növbəti tarixi Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir.

Müstəqilliyimizin simvolu olan Azərbaycan Respublikasının Dövlət Bayrağı bu gün suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Bu möhtəşəm tarixi hadisəni böyük təntənə ilə qeyd edərkən qürur hissi ilə bildirməliyəm ki, tarixi qələbələrimizin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qətiyyətlə davam etdirilərək şanlı Zəfərə nail olunmuşdur.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi bu tarixi gündə də dərin hörmət və ehtiramla anırıq. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində şəhidlərimizin ailə üzvləri, sağlamlığını itirən döyüşçülərimiz və müharibə veteranlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycanın suverenliyi uğrunda şəhid olan hərbi qulluqçularımızın ailə üzvlərini, sağlamlığını itirən silahdaşlarımızı və əziz veteranlarımızı bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha Sizi 20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, şərəfli xidmətinizdə daha böyük uğurlar arzulayıram.

**general-polkovnik**
***Zakir Həsənov***
**Azərbaycan Respublikasının müdafiə naziri**

## Hərbi qulluqçular İkinci Şəhidlər xiyabanını ziyarət ediblər



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti antiterror əməliyyatının ildönümü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib.

Müdafiə Nazirliyi xəbər verir ki, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Şəhidlərimizin məzarları üzərinə gül dəstələri düzülərək xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Tədbirdə şəhidlərin ölməzliyindən danışılıb və onların xatirələrinin hər zaman əziz tutulacağı əminliklə qeyd olunub.

## "Sonsuz qardaşlıq - III" çoxmillətli təlimi başa çatıb





Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlılarının iştirakı ilə Qazaxıstanda keçirilən "Sonsuz qardaşlıq - III" çoxmillətli təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, 400 nəfərdən çox heyətin iştirak etdiyi təlimin Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda bağlanış mərasimi keçirilib.

Tədbirdə təlim iştirakçılarının peşəkarlığı yüksək qiymətləndirilib.

Qeyd olunub ki, plana əsasən, sərhədi pozan şərti qanunsuz silahlı birləşmənin qarşısının alınması və zərərsizləşdirilməsi, hakim yüksəkliklərin ələ keçirilməsi, pilotsuz uçuş aparatlarının radioelektron mübarizə vasitələrindən istifadə etməklə sıradan çıxarılması, eləcə də dron hücumundan qorunma məqsədilə hava kəşfiyyatının aparılması və digər tapşırıqlar xüsusi təyinatlılar tərəfindən məharətlə yerinə yetirilib.

Sonda təlimdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edilib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliyaya rəsmi səfər edib

*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İtaliya Respublikasına rəsmi səfəri başlayıb.*



Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliyanın hərbi rəhbərliyi ilə bir sıra görüşlər keçirəcək və müdafiə sənayesi şirkətini ziyarət edəcək.

* * *



İtaliya Respublikasında rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Venesiya meydanında ucaldılmış “Naməlum əsgər” abidəsini ziyarət edib, önünə əklil qoyub, xatirəsini yad edib.







Sonra Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliya Respublikası Silahlı Qüvvələrinin hazırda fəaliyyətdə olan Baş Qərargah rəisi admiral Cuzeppe Kavo Draqone ilə görüşüb.

Baş Qərargahda keçirilən rəsmi qarşılanma mərasimində fəxri qarovulun önündən keçiddən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rəşad Aslanovun da iştirak etdiyi görüşdə İtaliya Müdafiə Nazirliyi və Silahlı Qüvvələrinin strukturu, fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub.

Təkbətək və geniş tərkibli görüşlərdə, həmçinin Azərbaycan ilə İtaliya arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

General-polkovnik Kərim Vəliyev admiral C.K.Draqoneni NATO-nun Hərbi Komitəsinin rəhbəri təyin olunması ilə əlaqədar təbrik edib, ona yeni vəzifəsində uğurlar arzulayıb.

* * *



İtaliya Respublikasında rəsmi səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb.

Tərəflər ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rəşad Aslanov da iştirak edib.

* * *

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin İtaliyaya rəsmi səfəri davam edir.

Səfər çərçivəsində Azərbaycan Ordusunun Baş Qərargah rəisi bu ölkənin hazırda Silahlanma üzrə Baş direktoru vəzifəsində xidmət edən general-leytenant Luçano Portolano ilə görüşüb.

General-polkovnik Kərim Vəliyev general-leytenant Luçano Portolanonu İtaliya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin olunması ilə əlaqədar təbrik edib, ona yeni vəzifəsində uğurlar arzulayıb.

Görüşdə hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi və bir sıra digər məsələlər müzakirə edilib. Tərəflər əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə ediblər.

Sonra İtaliyanın Birgə Əməliyyatlar Komandanlığını ziyarət edən Azərbaycan hərbi nümayəndə heyətinə qurumun fəaliyyəti barədə ətraflı məlumat verilib.



* * *

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev İtaliya Respublikasına rəsmi səfərinin növbəti günündə Roma şəhərində yerləşən NATO Müdafiə Kollecini ziyarət edib.

General-polkovnik Kərim Vəliyev kollecin komandanı general-leytenant Maks Nielsenlə görüşüb.

Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Rəşad Aslanovun da iştirak etdiyi görüşdə hərbi təhsil sahəsində qarşılıqlı əməkdaşlıq imkanları və perspektivləri haqqında geniş müzakirələr aparılıb.

Sonra kollecin tarixi, əsas fəaliyyət istiqamətləri və tədris prosesi, həmçinin dinləyicilər üçün burada yaradılmış şərait barədə Azərbaycan Ordusunun Baş Qərargah rəisinə ətraflı məlumat verilib.

Sonda general-polkovnik Kərim Vəliyev NATO-nun "Tərəfdaşlığın Qərargah Vəzifəsi Konsepsiyası" çərçivəsində xidmət edən, həmçinin "NATO regional əməkdaşlıq kursu"nun dinləyiciləri olan azərbaycanlı hərbi qulluqçular və mülki heyətlə görüşüb, onların təhsili və tədris şəraiti ilə maraqlanıb.



# Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin Komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun dəvəti ilə Ankarada səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində general-leytenant N.İslamzadə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.



Ordu generalı Ziya Cemal Kadıoğlunun da iştirak etdiyi görüşdə hər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

* * *

Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun dəvəti ilə qardaş ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə bir sıra görüşlər keçirib.

General-leytenant N.İslamzadə səfər çərçivəsində Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgün, milli müdafiə naziri cənab Yaşar Güler və Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlu ilə görüşüb.

Görüşlərdə Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, gələcək birgə layihələrlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Keçirilən görüşlər zamanı hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərdən danışılıb.







## Sülhə və təhlükəsizliyə töhfə verən beynəlxalq tədbirlərdə Azərbaycanın fəal iştirakı təqdirəlayiqdir

"Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq müstəvidə mövqeləri gündən-günə möhkəmlənir, nüfuzu artır. Bu, həm müasir tariximizin reallığı, həm də ölkəmizin dünya dövlətlər sisteminə uğurlu inteqrasiyasının göstəricisidir. Hesab edirəm ki, sülh, müdafiə və təhlükəsizlik, eləcə də digər mövzulara həsr olunmuş dünya əhəmiyyətli toplantıların, tədbirlərin ölkəmizdə keçirilməsi, eyni zamanda, Azərbaycanın dünyanın ən mötəbər tədbirlərinə dəvət alması dövlətimizə olan etibar və etimadın nəticəsidir. Bütün bunlar Azərbaycanın artan nüfuzunun sübutu olmaqla yanaşı, regionumuzda sülhün bərqərar olmasına, müdafiə qüdrətimizin daha da gücləndirilməsinə, təhlükəsizliyimizin təmin olunmasına müsbət töhfələr verir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist İsa İsmayılov deyib.

İ.İsmayılov bildirib ki, Azərbaycan sülhə və təhlükəsizliyə xidmət edən beynəlxalq tədbirləri daim dəstəkləyir və orada fəal təmsil olunur.

"Sevindirici haldır ki, ölkəmiz artıq bir sıra dünyamiqyaslı tədbirlərə ev sahibliyi edir, həm də böyük iqtisadi layihələrdə iştirak edir. Bildiyimiz kimi, Azərbaycan tarixi "İpək yolu"nun bərpasını özündə ehtiva edən "İpək yolu iqtisadi kəməri"nin yaradılması layihəsində iştirak etməklə, Avropa ilə Asiyanın dəmir yolu şəbəkələri vasitəsilə birləşdirilməsində böyük rol oynayır. Belə layihələrin gerçəkləşdirilməsi bir sıra dövlətlərin dünya bazarına çıxışını asanlaşdırır, ölkələr arasında münasibətləri möhkəmləndirir, sabitliyə və sülhə xidmət edir. Beynəlxalq layihələrdə ölkəmizin həm söz sahibi olması, həm də fəal iştirakı qürurverici haldır.



11-ci Syanşan forumu kimi tədbirlər və iqtisadi layihələr təhlükəsizliyin təmin olunmasında da böyük əhəmiyyət kəsb edir, həmçinin beynəlxalq əməkdaşlığın gücləndirilməsini şərtləndirir. Bəhs olunan sahədə, əsasən də iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsində və sülhə beynəlxalq dəstək missiyalarında dövlətimiz böyük təcrübəyə malikdir. Belə ki, dövlətimiz bu istiqamətdə digər ölkələrlə əməkdaşlığı uğurla davam etdirir və bu sahəyə böyük önəm verir", - deyə hərbi jurnalist vurğulayıb.

Ehtiyatda olan polkovnik-leytenant əlavə edib ki, Azərbaycanın Avropa və Asiyanın qovuşduğu coğrafi regionda, həmçinin nəqliyyat qovşağı rolu oynayan tarixi ərazidə yerləşməsi də ölkəmizin iqtisadi layihələrdə həm rolunu artırır, həm də gərgin iş, məsuliyyət, qətiyyətli addımlar atmağı tələb edir. Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, sərgilədiyi diplomatik səylər sayəsində dövlətimiz bu vəzifələrin öhdəsindən uğurla gəlməkdədir: "Müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun rəhbərliyi ilə nümayəndə heyətimizin iştirak etdiyi "Ortaq gələcək üçün sülhün təşviqi" devizi ilə keçirilən 11-ci Syanşan forumu da qeyd etdiyim məqsədlərə xidmət edir. Artıq ənənəvi olaraq hər il keçirilən Syanşan forumu Asiya-Sakit Okean regionunda təhlükəsizlik məsələlərini müzakirə etmək üçün aparıcı beynəlxalq platformalardan biridir.

Syanşan forumunun məqsədi təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı əlaqələri genişləndirməklə regional sülh və sabitliyi təşviq etməkdir. 100-dən çox ölkənin və beynəlxalq təşkilatın rəsmi və rəhbər şəxslərinin, analitik mərkəzlərin nümayəndələrinin, yüksək rütbəli hərbçilərin, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlərin qatıldığı bu tədbirdə iştirak ölkəmizə olan etimadın göstəricisidir", - deyə o bildirib.

Çinin paytaxtı Pekində "Ortaq gələcək üçün sülhün təşviqi" devizi ilə keçirilən 11-ci Syanşan forumunun iştirakçılarının sayının çoxluğu və müzakirə edilən məsələlər baxımından seçildiyini deyən İ.İsmayılov "Təhlükəsizlik əməkdaşlığı və Asiya-Sakit okean regionunda tərəqqi və sabitlik", "Çoxqütblülük və dəyişən beynəlxalq düzən", "Şimal-Şərqi Asiya təhlükəsizliyinin qorunması" və müzakirəyə çıxarılan digər mövzuların bu forumu fərqləndirən və əhəmiyyətini yüksəldən faktorlar olduğunu bildirib: "Terrora, soyqırıma, həmçinin vaxtilə əraziləri işğala məruz qalmış, regionda dayanıqlı sülhə nail olmaq istiqamətində təklif və səylərini, real addımlarını əsirgəməyən ölkə olaraq, sülhün, sabitliyin bərqərar olmasına, silahlı münaqişələrin sülh yolu ilə ədalətli həllinə, eləcə də hər ölkənin maraqlarına və mənafeyinə hörmətlə yanaşmanı təşviq edən tədbirlərdə Azərbaycanın fəal iştirakı təqdirəlayiqdir və mütərəqqi ölkələr tərəfindən hörmətlə qarşılanır.

Süni intellekt, davam edən münaqişələr, kosmos və dəniz təhlükəsizliyi, Avropada təhlükəsizliyin təkamülü, Yaxın Şərqdə sülhə baxış, beynəlxalq silah nəzarətinin gələcəyi, terrorla mübarizə, hər dövlətin öz təhlükəsizliyini qorumaq hüququnun olması, təhlükəsiz dünya üçün bütün ölkələrin bu istiqamətdə əməkdaşlığının vacibliyi mövzularında keçirilən görüş və müzakirələrin forum iştirakçıları tərəfindən böyük maraqla qarşılandığına inanıram.

Forumda müzakirə olunan mövzular çox maraqlı və əhatəlidir. Müasir dövrün təhdid və çağırışlarına hazırlıq, kiçik və inkişaf etməkdə olan bütün ölkələr üçün eyni imkanların yaradılması, ultimatum dilində danışmağın, dominant mövqenin diktə edilməsinin qəbuledilməzliyi və təhlükəsizliklə bağlı bir çox məsələlərin müzakirəsi müasir zamanın çağırış və təhdidlərinə cavab baxımından əhəmiyyətlidir. Bu forumda dövlətimizin yüksək səviyyədə təmsil edilməsi qürur verir.

Əminəm ki, ölkəmizi forumda uğurla təmsil etməklə nümayəndə heyətimiz xalqımızın mənafeyinə və dövlətimizin maraqlarına xidmət edən görüşlər keçirib, səmərəli müzakirələr aparıb, həmçinin hərbi-texniki sahədə faydalı əməkdaşlıqla bağlı razılıq əldə olunub".

## Yaşar Güler: Türkiyə Azərbaycanın yanında olacaq

*Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əzmkarlıq və qəhrəmanlıq nümayiş etdirərək Qarabağın azad olunmasına nail olub.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin milli müdafiə naziri Yaşar Güler Türkiyədə Qazilər Gününə həsr olunmuş tədbirdəki çıxışında deyib.

Tədbirin iştirakçıları arasında Azərbaycandan 44 günlük Vətən müharibəsi qaziləri də olublar.

Türkiyə və Azərbaycan şəhidlərinin xatirəsini anan nazir qazilərə hörmət və təşəkkürünü ifadə edib. O vurğulayıb: "Bir millət, iki dövlət" konsepsiyasını rəhbər tutaraq, biz sevincdə də, kədərdə də Azərbaycanı dəstəkləməkdə davam edəcəyik".

Kipr məsələsinə toxunan nazir qeyd edib ki, Ankaranın kiprli türklərin qanuni hüquqlarını müdafiə etmək məsələsində mövqeyi dəyişməz olaraq qalır. O, adada təhlükəsizlik atmosferini pozmaq cəhdlərinin yolverilməz olduğunu vurğulayıb: "Biz regiondakı prosesləri diqqətlə izləyirik və istənilən ssenariyə hazırıq".

Güler, həmçinin qeyd edib ki, Türkiyə ordusu əvvəlki dövrlərdən fərqli olaraq, məhdud zaman və məqsədli əməliyyatlardan terror təhlükəsinin aradan qaldırılmasına yönəlmiş genişmiqyaslı və uzunmüddətli fəaliyyətə keçib.

## Azərbaycan Ordusunda Dövlət Suverenliyi Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, sentyabrın 20-də Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü münasibəti ilə silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Keçirilən tədbirlər zamanı müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki iştirakçıların diqqətinə çatdırılıb.



Çıxış edənlər bildiriblər ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Ermənistan Respublikası xarici havadarlarının köməyi ilə ölkəmizə qarşı işğalçılıq siyasəti həyata keçirərək torpaqlarımızın 20 faizini işğal etmiş, xalqımıza qarşı insanlıq əleyhinə cinayətlər apararaq şəhər və kəndlərimizi viran, təbii sərvətlərimizi isə talan etmişdir, eləcə də dövrümüzün ən dəhşətli faciəsi olan Xocalı soyqırımını törətmişdir.

Düşmənin növbəti hərbi təcavüz və təxribatlarının qarşısı 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-da həyata keçirilən antiterror əməliyyatında alınaraq tarixi Zəfər qazanılmış, torpaqlarımız işğaldan azad olunmuşdur. Bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanır.

Tədbirlər çərçivəsində Azərbaycan Ordusunun şəxsi heyəti, həmçinin şəhidlərimizin məzarlarını ziyarət edib, gül dəstələri düzərək xatirələrini hörmət və ehtiramla anıblar.

## Yeni nəşrlər

### “44 günlük Vətən müharibəsi” kitabı rus dilində çapdan çıxıb




Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunda hazırlanan"44 günlük Vətən müharibəsi" kitabı rus dilində çapdan çıxıb. Kitabın müəllifi həmin universitetin Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyevdir.

AZƏRTAC xəbər verir ki, kitabda Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişənin gərginləşməsi prosesindən tarixi-xronoloji ardıcıllıqla bəhs edilir.

Kitabda mətbuatda dərc olunan informasiyalar, ekspertlər, hərbi və beynəlxalq humanitar hüquq sahəsində ixtisaslaşan alimlər və mütəxəssislərin təhlilləri əsasında Ermənistan və Azərbaycan arasında İkinci Qarabağ müharibəsinin məzmununu müəyyənləşdirən əsas hərbi və siyasi komponentlərə qiymət verilir.

"44 günük Vətən müharibəsi" kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

### İsveçrə qəzetində Azərbaycanda ordu quruculuğundan bəhs edilən məqalə dərc olunub


Aargauer Zeitung

**Vorbild für die Schweiz? Wie es Aserbaidschan schaffte, seine Armee neu zu erfinden**

Der Eroberung von Berg-Karabach im September 2023 ging eine erstaunliche konzeptionelle und technologische Revolution in den Streitkräften Aserbaidschans voraus. In der Diskussion über die künftige Ausrüstung der Schweizer Armee sollte dieser vergessene Konflikt eine Rolle spielen.

İsveçrənin aparıcı mətbu orqanları arasında yer alan "Aargauer Zeitung" qəzetində "İsveçrə üçün örnək? Azərbaycan öz ordusunu yenidən kəşf etməyi necə bacardı?" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın 44 günlük Vətən müharibəsinə hərbi hazırlığının mahiyyətindən, ordu quruculuğunda konseptual və texnoloji inqilabın həyata keçirilməsindən, eyni zamanda, bu nümunənin perspektivdə İsveçrə ordusunun gələcək silahlanmasında oynaya biləcəyi roldan bəhs edilib.

Məqalə müəllifi Boyan Stula 2020-ci ildə Azərbaycanın hərbi-texnoloji cəhətdən Ermənistan üzərində qəti qələbə qazandığını, tam bir il bundan əvvəl isə düşmən qüvvələrinin yenək şəkildə darmadağın edilməsinin başa çatdırıldığını qeyd edir. Bildirilir ki, Azərbaycan Silahlı Qüvvələrinin inqilabi dəyişiklik və müasirləşməsi İsveçrə ordusu üçün bir sıra düşündürücü məqamlara yol açır. Çünki Azərbaycanın 2020-2023-cü illərdə həyata keçirdiyi əməliyyatlar tarixdə robot sistemlərin uğura imza atdığı ilk müharibə kimi yadda qalıb. Müəllif bununla bağlı ABŞ analitiki, təqaüddə olan polkovnik Con Antalın "Ölümə yeddi saniyə" kitabına da istinadlar edir. Kitabda qeyd olunur ki, bu əməliyyatlar pilotsuz uçuş aparatları (PUA) ilə müharibə aparmağın ilk nümunəsi hesab edilməlidir.

Məqalədə Birinci və İkinci Qarabağ müharibələrinin fərqləndirici xüsusiyyətlərinə də toxunulur. Qeyd edilir ki, ermənilər sovet doktrinasına sadiq qalaraq, ənənəvi yol seçdilər və Qarabağda ələ keçirdikləri ərazilərdə mövqelərini möhkəmləndirməyə üstünlük verdilər. Azərbaycan isə öz ordusunda radikal dəyişikliklər yolunu seçərək Türkiyə ilə sıx hərbi əməkdaşlığa başladı. Həm bu ölkədən, həm də İsraildən aldığı pilotsuz uçuş aparatlarını öz arsenalına daxil etdi. Artıq 2020-ci ildə hərbi əməliyyatlar yenidən alovlananda Azərbaycan öz hərbi doktrinasını tam şəkildə "Bayraktar" və "Harop" kimi silahlar üzərində qurmuş, ciddi təlimlərlə bu silahları mənimsəmişdi.

Məqalədə Azərbaycan Ordusunun tətbiq etdiyi müasir döyüş texnologiyaları, düşməni çaşdırmaq üçün istifadə edilən manevrlər, süni intellektin hərbi texnologiyalarda istifadəsi və digər innovativ hərbi istiqamətlərdən bəhs olunub, İsveçrənin öz ordu quruculuğunda bu modeldən bəhrələnməli olduğu qeyd edilib.

## Xəbərlər: hadisələr, faktlar

### Ukrayna Danimarkadan F-16 qırıcılarının daha bir partiyasını alacaq



İlin sonuna qədər Ukrayna Danimarkadan F-16 qırıcı təyyarələrinin daha bir partiyasını alacaq.

Bunu Danimarkanın müdafiə naziri Troels Lund Poulsen bildirib. Təyyarələrin tədarükünün dəqiq tarixi və sayı əməliyyat təhlükəsizliyi baxımından məxfi olaraq qalır.

Nazirin sözlərinə görə, ilk təyyarə Ukraynaya avqust ayında təhvil verilib, ümumilikdə isə Danimarka 19 qırıcı tədarük etməyi öhdəsinə götürüb.

"Daha bir F-16 2024-cü ilin ikinci yarısında təhvil veriləcək", - deyə Poulsen təsdiqləyib.

F-16 "Fighting Falcon" ən populyar və uğurlu dördüncü nəsil çoxməqsədli qırıcılardan biridir. ABŞ-da işlənib hazırlanaraq, o, İtaliya da daxil olmaqla dünyanın bir çox ölkəsi tərəfindən qəbul edilib.

### Ermənistanda hərbi çevriliş cəhdinin qarşısı alınıb



Ermənistan milli təhlükəsizlik xidmətinin əməkdaşları hərbi çevriliş yolu ilə ələ keçirmək cəhdinin qarşısını alıblar.

Bu barədə Ermənistan istintaq komitəsi məlumat yayıb.

Açıqlamaya görə, hərbi çevriliş planı ölkə vətəndaşlarından və keçmiş Qarabağ ermənilərindən ibarət qrup tərəfindən hazırlanıb. İstintaq komitəsi iddia edir ki, qrupun üzvləri Rostov şəhərinə gedərək orada hansısa "Arbat" bazasında təlim keçiblər. "Müəyyən edilib ki, təlimlərin məqsədi Ermənistana qayıtmaq və mövcud hökuməti devirmək olub", - deyə istintaq komitəsi bildirib.

Qeyd olunub ki, 7 nəfər barəsində cinayət işi başlanıb. Onlardan üçü həbs edilib, dördü isə axtarışa verilib.

### ABŞ ordusunun komplektləşdirilməsi artıq çəkili gənclərə görə çətinləşir



2023-cü ildə 53 mindən çox namizədin ordu sıralarına qəbulundan imtina edilib.

Bu barədə "American Security Project" təşkilatının hesabatında bildirilir. İstefada olan hərbçilərin yaratdığı təşkilat ordu ilə bağlı vəziyyətin təhlili ilə məşğuldur.

Təşkilatın ekspertləri bildirirlər ki, gənclər arasında yayılmış piylənməyə görə ordunun yeni heyətlə komplektləşdirilməsi ildən-ilə çətinləşir. 2002-ci ilə müqayisədə ordu sıralarına qəbul olmaq istəyənlərin sayı 54 faizədək azalıb. Qəbul şərtlərinin yüngülləşdirilməsi vəziyyətin yaxşılaşmasına təsir etməyib.

Pentaqonun 2015-ci ilə aid hesabatına görə, 17-24 yaş arası amerikalıların 71 faizi artıq çəki, təhsilsizlik, narkotikdən istifadə və cinayətkar keçmişinə görə hərbi xidmətə yararsızdır. Bu yaşda gənclərin 31 faizinin orduya yazılmasına isə artıq çəki mane olur. Maraqlıdır ki, artıq çəki həqiqi hərbi xidmətdə olanlar üçün də problemdir. Artıq çəkili hərbçilərin müalicəsi üçün Müdafiə Nazirliyi hər il 1 milyard dollardan çox pul xərcləyir.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Zərgərov Elvin Cavid oğluna verilmiş AD № 0025759 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təhməzov Firdovsi Bəhmən oğluna verilmiş MV № 058950 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Eltun MƏMMƏDOV

Lisenziya № 361
Sifariş № 552
Nüsxə 4650